# Coğrafiya fənninin tədrisi prosesində vətənpərvərlik duyğularının aşılanması təcrübəsindən

**Məhsəti Gözəlova**
*Bakı şəhəri Səbail rayonu*
*49 saylı məktəb-liseyin müəllimi*
**E-mail:** mehseti79@gmail.com

*"Uşaqlara Vətəni sevməyi öyrətmək lazım deyil!*
*Siz onlara Vətəni tanıdın, özləri sevəcəklər"*
**akad. Xudu Məmmədov**

**Rəyçilər:** p.ü.f.d., dos. D.M. Ələsgərov,
p.ü.f.d., dos. K.R. Quliyeva

**Açar sözlər:** vətənpərvərlik, dövlət, tərbiyə, təlim, inkişaf, ekskursiya, mövzu, bölmə, tədris

**Ключевые слова:** патриотизм, государство, воспитание, обучение, развитие, экскурсия, тема, раздел, обучение

**Key words:** patriotism, state, education, training, development, excursion, theme, section, teaching

Vətənpərvərlik - insanın el-obasına, yurduna, vətəndaşı olduğu ölkəyə məhəbbətdən doğan ali hissdir. Əlbəttə, vətəninin, xalqının, həmvətənlərinin uğurlarına sevinmək hissi təbiidir, lakin, bu hiss tərbiyə və təbliğatla möhkəmlənir.

Bu gün müstəqil dövlətimizin inkişafına çalışdığımız dönəmdə, gənclərlə bağlı qəbul olunan bütün fərman və sərəncamlarda onların vətənpərvərlik tərbiyəsi əsas götürülür. Respublikanın ümumtəhsil məktəblərində tərbiyə işi bir qayda olaraq, ayrı-ayrı fənlərin tədrisi zamanı mövzunun tərbiyə imkanlarından istifadə edərək həyata keçirilir. Vətənpərvərlik tərbiyəsinin aşılanması bir fənnin, bir neçə mövzunun əhatə dairəsinə sığmır. O, çox geniş, kompleks yanaşma tələb edir. Yalnız hərtərəfli və daimi təbliğat nəticəsində vətənpərvərlik anlayışı öz yerini tapır və tərbiyəvi hisslərin formalaşmasına gətirib çıxarır.

Vətənpərvərlik tərbiyəsi həmişə aktual olsa da, hazırda daha böyük əhəmiyyət kəsb edir. Bir tərəfdən müstəqil dövlətimizin müasir dünyada inkişaf etmiş qabaqcıl ölkəyə çevrilməsi üçün savadlı və eyni zamanda vətənpərvər gənc nəslin yetişməsinə olan tələbat, digər tərəfdən, isə ərazimizin 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu dönəmdə vətənə sadiq, onu qorumağa hazır olan vətəndaşların yetişdirilməsi ən vacib məsələdir.

Vətənpərvərlik duyğularının aşılanması əslində bütün fənn müəllimlərinin əsas qayəsi olsa da, bu sahədə coğrafiya müəllimlərinin qarşısında daha böyük imkanlar açılır. Coğrafiyanın təliminin birbaşa həyatla əlaqələndirilməsi, şagirdlərin idrak fəaliyyətini yüksəldilməsi, onlarda müxtəlif bacarıq və vərdişlərin aşılanmasında diyarşünaslıq işləri xüsusi əhəmiyyət daşıyır.

Vətənpərvərlik duyğularının aşılanmasında müxtəlif metodlardan istifadə edilir. Bu metodlardan ən başlıcası tədris ekskursiyalarıdır. Tədris ekskursiyaları təkcə təlim metodu kimi yox, coğrafiya təliminin ən başlıca təşkilati formalarından biri kimi başa düşülməlidir. Ekskursiyalar - gənc nəslin öz diyarları haqqında təsəvvürlərinin və dünyagörüşünün

genişlənməsi üçün çox faydalıdır. Ekskursiyalar həm də diyarşünaslıq materiallarının toplanması və onlardan təlim prosesində istifadə olunması baxımından müstəsna əhəmiyyət daşıyır: bizim şagirdlərin yay tətili dövründə Azərbaycanın müxtəlif regionlarından topladıqları süxur nümunələri əsasında, dərslərimizdə də istifadə etdiyimiz, maraqlı bir kolleksiyamız var.

Son illər Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin ayrı-ayrı şəhər və rayonlarına maarifləndirici tur-aksiyaların təşkil olunur. Dövlət başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən bu layihənin əsas məqsədi şagirdlərdə ölkəmizin müxtəlif bölgələrinin tarixi keçmişi, mədəni iris, müasir həyatı və yenilənən siması barədə əyani surətdə təsəvvür yaratmaqdır.

Mən bir coğrafiya müəllimi kimi öz dərslərimdə vətənpərvərlik duyğularını aşılamaqla, doğma diyarımıza, insanlarımıza və yaşadığımız dünyaya sevgi ilə yanaşmağı öyrətməyə çalışır, bununla da vətənimizin və sakini olduğumuz Yer planetinin öyrənilməsinə şagirdlərdə maraq yaratmağa səy göstəririm. Mən vətənpərvərliyin təbliğini Vətən uğrunda döyüşmüş qəhrəmanlarımızın tanıdılmasından başlayıram. Bunun üçün Milli Qəhrəmanlarımızın igidlikləri, ilk növbədə də, məktəbimizin adını daşıdığı Rəfael Hüseynov haqqında vaxtaşırı müzakirələr aparırıq.

6-cı sinifdə ilk mövzu "Azərbaycan mənim Vətənimdir" mövzusudur. Bu mövzuya görkəmli bəstəkarımız Asəf Zeynallının "Ölkəm" romansının dinlənilməsi ilə başlayıram. Dərslikdə mövzuya aid verilən şəkillər sanki, bu romansın sözlərini tərənnüm edir. Şagirdlər Vətən haqqında bu musiqini dinləməklə yanaşı, yaşadığı çox qısa zaman kəsiyində ölməz əsərlər yaradan, Üzeyir Hacıbəyovun tələbəsi olmuş bəstəkarımızı - A.Zeynallını da tanımış olurlar. Bu mövzunun tədrisində şagirdlər ilk növbədə Dövlətimizin dünya xəritəsində yerini müəyyən edir və kontur xəritəyə köçürürlər, qonşu dövlətləri qeyd edirlər. Ev tapşırığı üçün "Vətən - mənim üçün nədir?" mövzusunda esse və A.Zeynallı haqqında əlavə məlumat toplamaq olur.

Dərslərin maraqlı olması üçün bir sıra uyğun mövzuların tədrisində musiqi nümunələrindən istifadəyə yer verirəm və bu şagirdlərin həm yorğunluğunu aradan qaldırır, həm də dərsin mənimsənilməsinə müsbət təsir göstərir. Məsələn, səhralardan bəhs edən mövzularda S.Hacıbəyovun "Karvan" simfonik muğamından bir parçanı dinləmək çox yerinə düşür.

"Litosfer və yerin relyefi" bölməsində vətənpərvərlik tərbiyəsinin tətbiqi üçün bir neçə mövzuda xüsusilə geniş imkanlar vardır. "Yer qabığının quruluşu" mövzusunda yerin dərin qatlarının öyrənilməsindən danışarkən, dünyada tədqiqat məqsədilə qazılmış ən dərin 3 quyunun birinin Saatlı rayonu ərazisində olmasını vurğulamaqla, şagirdlərin diqqətini ölkəmizə çəkirəm. Təbii ehtiyatlarımızdan danışarkən, işğal olunmuş ərazilərimizdəki sərvətlərimiz haqqında diskussiya apararaq, onların təsəvvüründə Vətən anlayışının mənəvi tərəfləri ilə yanaşı, maddi tərəflərinin də düzgün formalaşdırılmasına çalışıram.

"Atmosfer" bölməsinin öyrənilməsində yaşadığımız ərazinin havası üzərində müşahidələr aparmaq (temperaturun ölçülməsi, buludların növünün təyini, yağıntıların müddətinə görə ayrılması, küləyin istiqaməti və s.) şagirdlərin marağına səbəb olur. Onlar dərslikdəki nəzəri bilikləri həyatda tətbiq edərək öyrənir və bu da mövzunun dərində mənimsənilməsi ilə bərabər, şagirdlərdə lazımi bacarıqların formalaşmasına əlverişli imkan yaradır.

"Əhali" bölməsində ölkəmizdə yaşayan xalqların etnik tərkibi diqqət çəkən məqamlardandır. Məktəbdə təşkil etdiyimiz "Eko-etnoqrafiya şagirdlərin təqdimatında" adlı

dəyirmi masada Azərbaycanda yaşayan müxtəlif etnoslar, onların yayılma arealı və bu etnosların vahid “azərbaycanlı” adı altında birləşərək, Vətənimizin birliyi uğrunda apardığı mübarizə öz əksini tapmışdı.











Bu tədbirdə mənim bir müəllim kimi rolum, yalnız şagirdlərə istiqamət vermək oldu, dərsarası vaxtlarda mən onlara öz tövsiyələrimi verdim, onlar isə müstəqil şəkildə əsl yaradıcılıq işi ərsəyə gətirdilər. Mövzuya geniş aspektdən yanaşaraq, tarixi-coğrafi faktlarla ermənilərin bu ərazilərə sonradan gəlmə etnos (XIX əsr-Türkmənçay sülhündən sonra) olduqları, 1988-1992-ci illər ərzində Qərbi Azərbaycan və Qarabağda apardıqları “etnik təmizləmə siyasəti” haqqında təqdimatlar hazırlamışdılar. Onların öyrəndiyi faktlardan biri də çox diqqət çəkən idi: 1978-ci ildə Ağdərə rayonunun Marağa kəndində ermənilər, buraya köçdüklərinin 150 illiyi münasibətilə abidə ucaltmışdılar ki, bu isə onların özlərinin gəlmə olduğunun sübutudur.

Düşünürəm ki, Vətənpərvərlik duyğularının aşılanmasında qeyri-standart dərslər - debat, dəyirmi masa, müzakirə-dərslər xüsusi önəm daşıyır. Bu cür dərslərdə mən mövzuya uyğun problemli situasiya yaradaraq, bu problemin həllini şagirdlərin özlərinə həvalə edirəm. Nəticədə onlar topladıqları məlumatları bir-birilə bölüşür, müstəqil düşünmə və fikir yürütmə bacarıqlarına yiyələnirlər.

2018-ci ildə ölkəmizin tarixində 3 mühüm hadisənin 100 ilik yubileyi üst-üstə düşürdü: Şərqdə ilk demokratik respublika - ADR-in yaranması, Azərbaycan bayrağının və Milli Ordumuzun yaradılması. Bu yubileylərlə bağlı şagirdlərlə müxtəlif müzakirələr, tədbirlər keçirdik ki, bu da vətənpərvərlik ideyalarının birbaşa tərənnümü idi.

2018-2019-cu tədris ilinin ilk dərsini isə bayrağımıza həsr etmişdik. Şagirdləri 4 qrupa ayıraraq, hər qrupa Bayrağımız haqqında paylama materialları və qrup işləri hazırlamışdım. Şagirdlər tapşırıqların öhdəsindən layiqincə gəldilər.

Qeyd etmək istəyirəm ki, coğrafiya dərslərində ədəbiyyatla inteqrasiyanın vətənpərvərlik hislərinin aşılanmasında rolu əvəz olunmazdır. Bu baxımdan M.Arazın bir çox şeirləri bizim köməyimizə gəlir:

Vətən göz bəbəyi, biz isə kirpik.
Kirpik, göz bəbəyini qorusun gərək!

Ümummilli lider Heydər Əliyevin məşhur "Mən fəxr edirəm ki, azərbaycanlıyam" fikri də şagirdləri vətənpərvərliyə səsləyir.

Şagirdlərə bu ali duyğunun aşılanması eyni zamanda müəllimin bu işə nə dərəcədə hazırlıqlı və məlumatlı olmasından birbaşa asılıdır. Müəllim ayri-ayri fənlərlə inteqrasiya qurmaq bacarığına malik olduqda, vaxtaşırı yeni statistik məlumatlar, kartoqrafik vasitələrdən yerində və bacarıqla istifadə etdikdə, qarşıya qoyulan məqsədə daha tez çatmaq olar. Bunun üçün həm də:

— Şəhidlər xiyabanını müntəzəm ziyarət etmək və şəhidlərimizin göstərdiyi qəhrəmanlıqları öyrənməklə, onların ruhuna hörmətlə yanaşmağı aşılamaq;

— Vətənimizin görkəmli şəxsiyyətləri haqqında referatlar, təqdimatlar hazırlamağa cəlb etmək;

— Ölkəmizin müxtəlif guşələri, təbii ehtiyatlarından bəhs edən divar qəzetləri hazırlamağa həvəsləndirmək;

— Məktəbdənkənar kitabxanalardan istifadəni geniş təbliğ etmək;

— Müntəzəm olaraq şagirdləri olimpiadalarda iştirak etməyə həvəsləndirmək;

— Şagirdlərin əl işlərinin sərgisini təşkil etmək vacibdir.

**Məqalənin aktuallığı.** Müharibə şəraitində yaşayan, torpaqlarının 20 faizinin düşmən tapdağında olan respublikamızda yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması ən vacib məsələlərdəndir. Məqalə də bu mövzuya həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə şagirdlərə vətənpərvərlik hisslərinin aşılanması, ölkəmizə və yaşadığımız dünyaya sevgi iə yanaşmağın öyrədilməsi ilə bağlı müxtəlif dərsliklərdən nümunələr gətirilmiş, bu məqsədlərə çatmağın mümkün yolları göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. D.Əfəndiyeva, D.Ələsgərova. Diyarşünaslıq: Ali məktəbin magistr və bakalavr pilləsi üçün. Bakı, 2014.
2. N.Seyfullayeva, İ.Aktoprak, Y.Şabanova. Coğrafiya-6: Metodik vəsait. Bakı, 2017.
3. Z.Eminov, Q.Səmədov. A.Əliyeva. Coğrafiya-8: Metodik vəsait. Bakı, 2015.

**М. Гозалова**

## Опыт внушения патриотизма в процессе преподавания географии

## Резюме

Патриотическое воспитание - одно из основных направлений деятельности всех

педагогов. Учитывая природные ресурсы страны, ландшафты, климатические условия и другие аспекты, учителя географии имеют больше возможностей, в отличие от других преподавателей. Тема патриотизма всегда актуально, но при воспитании преданных и отважных граждан она имеет более высокую значимость.

**M. Gozalova**

## Experience of suggestion of patriotism in the teaching of geography

## Summary

Patriotic education is one of the main activities of all teachers. Considering the country's natural resources, landscapes, climatic conditions and other aspects, geography teachers have more options than other teachers. The topic of patriotism is always relevant, but it has a higher significance when educating loyal and courageous citizens.

**Redaksiyaya daxil olub:** 02.07.2019